respublika.- 2018.- 14 iyun.- S.10.

Şair sözü əbədiyaşardır

Onlarca kitabın müəllifi, istedadını zəhmətilə cilalayan Əli Vəkil də sevilən, hər zaman oxunan şairlərimizdəndir.

Əli Vəkil oğlu Səfiyev 10 iyun 1938-ci ildə qədim Azərbaycan torpağı olan Göyçə mahalının Basarkeçər rayonunun Yuxarı Şorca kəndində sadə kəndli ailəsində doğulmuşdur. Əlinin 3 yaşı olanda atası Vəkil dünyasını dəyişmiş və o, bacısı Sehranla Yaqut ananın himayəsində qalmışlar.

1947-ci ildə Əlini kənd məktəbinin birbaşa III sinfinə qəbul edirlər. O, oxuduğu zamanda I və II siniflərin dərs proqramlarını uğurla mənimsəyərək, oxuduğu III sinif şagirdləri arasında nümunəvi və əlaçı şagird kimi seçilir.

1952-ci ildə isə Yaqut ana 40 yaşında dünyasını dəyişir. Şişqaya kənd orta məktəbində direktor vəzifəsində işləyən Əlinin dayısı Məhərrəm Abbasov onu öz himayəsinə alır.

Şişqaya kənd orta məktəbininin VIII sinfinə qəbul olunan və 1955-ci ildə bu məktəbi müvəffəqiyyətlə bitirən Əli Səfiyev, elə həmin il İrəvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinin Azərbaycan bölməsinə qəbul olunur və 1960-cı ildə təhsilini başa vurur.

Həmin il Ermənistan Dövlət Televiziya və Radio verilişləri Komitəsi İrəvan radiosunun Azərbaycan bölməsi üzrə diktor seçimi üçün müsabiqədə iştirak edir: 20 gəncin içərisində Azərbaycan və erməni dillərini mükəmməl bilən, səlis nitq qabiliyyəti və diksiyası ilə fərqlənən Əli Səfiyevə işə götürülür.

Əli Vəkil 1960-1972-ci illərdə İrəvan radiosunda çalışmış, efirdə Azərbaycan dilində yayımlanan xəbərlərin diktoru olmuşdur.

Radioda çalışmaqla o, həm də bədii yaradıcılıqla məşğul olur, şeirləri ilə müxtəlif mətbu orqanlarda çıxış edir. Əli Vəkilin mədəniyyət və incəsənət sahəsinə olan həvəsi onu ikinci təhsil almağa da sövq edir. Beləliklə, o, istehsalatdan ayrılmamaqla M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsinə daxil olaraq 1970-ci ildə ikinci ixtisasa da sahib olur.

O, 1972-ci ildə ailəsilə Bakıya köçdükdən sonra 3 il (1972-1975) Azərbaycan Teleradio Verilişləri Dövlət Komitəsində, iki il (1975-1977) M.A.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunda, 13 il (1975-1988) Azərbaycan Yazıçılar Birliyində, 1990-1999-cu illərdə isə Azərbaycan Dövlət Nəşriyyatında "Göy qurşağı" redaksiyasının azsaylı xalqların ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

Məlum hadisələr Dağlıq Qarabağda gərginlik yaratdığı ilk illərdə Əli Vəkil Azərbaycan KP MK-nın yaratdığı təbliğat-təşviqat qrupunun rəhbəri olmaqla 5 nəfərdən ibarət Azərbaycan ziyalısı ilə 22 fevral 1988-ci il tarixində bütün təhlükələrə sinə gərərək Şaumyan kənd rayonuna, Gülüstan kəndinə və ermənilər yaşayan digər kəndlərə gedərək, əhali arasında Azərbaycanın bütövlüyü, bu torpaqların lap qədimlərdən Azərbaycana məxsus olduğu barədə günlərlə söhbətlər aparmışdır.

1990-cı ilin aprelində MK və DTK-nın xəttilə Xankəndiyə gedərək Polyaniçkonun sədri olduğu Təşkilat Komitəsinin işində yaxından iştirak etmişdir.

Əli Vəkil bundan sonra həyatını bütünlüklə ədəbi-bədii yaradıcılığa həsr edir. O, 1972-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvüdür.

Şairin "Sona bulağı" adlı ilk şeirlər kitabı hələ 1963-cü ildə İrəvanda nəşr olunmuşdur. Daha sonralar isə "Zəfər çələngi" şeirlər və poemalar kitabı (1967), Aşıq Ələsgər və Mikayıl Müşfiqin görüşünü özündə təcəssüm etdirən "İki günəş" poeması (1971), C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan teatrının aktyoruna həsr etdiyi "Əli Şahsabahlı" adlı monoqrafiyası da İrəvanda nəşr olunmuşdur. Bundan sonra bir çox kitabları, o cümlədən (1973), "Ata həsrəti" şeirlər və poemalar, (1979), uşaqlar üçün şeirlərdən ibarət "Göyərçinlər" (1983) və "Şəlalə" (1988), "Yeddi dağ" şeirlər və poemalar (1984), "Ana qayğısı" şeirlər və poemalar (1991), Azərbaycan Respublikasının Xalq artisti, tarzən Ramiz Quliyevin sənət dünyasından bəhs edən "Ramiz sənətinin sehri" (2001), "Çal, ay ustad" (2001) və hər biri ayrıca nəşr olunmuş poemaları — "Ellərin İsgəndəri" (2003), "Cərrah Vaqif möcüzəsi" (2003), "Əbədi dünya" (2004), "Qoşmalar" şeirlər toplusu (2004), "Ömür karvanı" (2004), Mehdi Hüseynzadənin şücaətlərindən bəhs edən "Kişi ömrü" (2004), "Fərizə və İlham dastanı" (2004), "Dönük taleyin əzablı yolları" şeirlər toplusu (2005), "Əbədi qəhrəmanlıq" poeması (2005), ithaflardan ibarət şeirlər toplusu olan "Aqillər, ariflər, alicənablar" (2007), Qarabağ faciəsinə həsr olunmuş "Narahat ürək" adlı şeirlər və poemalar və "Bir çinarın budaqları" poeması (2008) Bakının müxtəlif nəşriyyatlarında çap olunmuş, zamanında ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Əli Vəkil "Ana, Ana, Ana" adlı almanaxda yer almış 312 şairin ana haqqında yazmış olduğu minə yaxın şeirini toplayaraq, həm də tərtibçisi, redaktoru olaraq onu 2006-cı ildə nəşr etdirmişdir. 2004-2009-cu illər ərzində (hər il bir nəşr olmaqla) vaxtilə Qərbi Azərbaycanda yazıb-yaratmış, habelə Azərbaycan Respublikasında fəaliyyət göstərən şairlərin seçmə şeirlərindən ibarət "Əbədi İrəvan" adlı Almanaxı işıq üzünə çıxarmışdır.

Əli Vəkilin ümummilli liderimiz Heydər Əliyevin həyat və yaradıcılığını təcəssüm etdirən "Əbədiyaşar dahi" adlı poeması da artıq nəşrə hazırdır.

İyirmi üçüncü ildə - Naxçıvan torpağında,
May ayının onunda, ilin gözəl çağında.
Azərbaycan adlanan ölkənin qucağında,
Dünyaya körpə gəldi Əlirza ocağında...
...Hələ heç kəs bilmirdi sabahkı öndərdi o,
Məmləkətin dayağı, dahi bir rəhbərdi o.
Bilmirdilər bu körpə dünyaya səs salacaq,
Qitələrdə tanınıb, elin fəxri olacaq.
Kimsə bilmirdi onda xalqın Heydəri gəldi,
Böyük Türk Dünyasının Böyük Öndəri gəldi...

Güman ki, bu dəyərli poemanın nəşrinə yazıçıların nüfuzlu rəhbəri Anar biganə qalmayacaqdır.

Əli Vəkilin yaradıcılıq palitrası böyük zövqlə toxunmuş Azərbaycan xalçasının çeşnilərinə bənzəyir. Bu çeşnilərdə Allahın yaratmış olduğu bütün rənglər SÖZün qüdrətilə tərənnüm olunur.

Şairin yaradıcılığında ulu Yaradana olan böyük eşqinə, Vətənə, onun müqəddəs torpağına, əsrarəngiz təbiətinə, gözəlliyinə, insana olan sevgisinə nəsr olunmuş, şeirlərini oxuduqca təsirlənir, müəllifin rənglər, duyğular dünyasında xoş hal olursan.

Vətənimizin paytaxtı, gözəlliyi göz oxşayan Bakı haqqında çoxsaylı şeirlər yazılıb, bundan sonra da yazılacaq. Əli Vəkilin "Bakı"sı isə ayrı bir "Bakı"dı.

Qorki Neapola bənzətmiş səni,
Əməkçi insanlar yüksəltmiş səni.
Şairlər şeirində vəsf etmiş səni,
Parlayan Günəşin özüsən, Bakı!..

Gəlimli-gedimli dünyamızın ağrı-acılarından, zəhmətlə qazanılan dəyərlərdən, mənəvi yüksəlişdən bəhs edən şair həm də insanlara vətəni sevməyi, onu qorumağı təlqin edir.

Qəlbi Azərbaycan sevgisi ilə döyünən şairin mövzuları rəngarəngdir, çoxçalarlıdır. Nəticədə bunlar hamısı azərbaycançılıq ideologiyasına, milli dəyərlərimizin təbliğinə, inkişafına söykənir. Əli Vəkil bir ziyalı, vətəndaş olaraq vətənçilik əxlaqına hər zaman sadiq olan ədəbiyyat adamıdır.

Əli Vəkilin yaradıcılığı hər zaman ədəbi tənqidimizin diqqətini cəlb etmiş, müxtəlif vaxtlarda əsərləri, eləcə də ədəbi şəxsiyyəti haqqında yüksək fikirlər söylənilmişdir.

Elçin, Xalq yazıçısı: "Sən qəsbkar işğalına məruz qalmış o ziyalılarımızdansan ki, müqəddəs mübarizəmizi qələminlə davam etdirirsən. Sənin poeziyan və jurnalist fəaliyyətin həmişə xalqımızın təəssübünü çəkən bir vətəndaşın özünüifadəsi olmuşdur.

Bir çox illər Yazıçılar İttifaqında sənlə birgə işlədiyimiz günlərin xoş xatirələri həmişə mənim yadımdadır".

Əzizə Cəfərzadə, Xalq yazıçısı:

"Əli Vəkil qardaşımın Ramiz kimi bir sənətkar haqqında yazdığı poemanı "Ekspress" qəzetində oxudum. Mənə elə gəldi ki, ilk dəfədir sənətkara sağlığında necə qiymət verildiyinin və belə bir irihəcmli poema yazıldığının şahidi oluram.

Məstan Günər, Dövlət mükafatı laureatı:

"Əli Vəkil — "Ellərin İsgəndəri" poeması qəhrəmanının lirik qütblərini böyük sənətkarlıqla ifadə etmişdir. Lirik tərənnümlər qəhrəmana məhəbbət bolluğunda məcra tanıtmır, dəniz dalğaları kimi sahildən-sahilə süzüb gedir. Müəllifin ən böyük niyyəti, qəhrəmanın fərdi cizgilərini önə çəkməklə, onun məhdud iş-güc qayğılarından, kənd məhdudluğundan kənara çıxarmasıdır...".

Əli müəllim hələ İrəvanda yaşayıb fəaliyyət göstərdiyi zamanı öz yarısı ilə rastlaşmış və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsinin məzunu, köklü-köməcli irəvanlı qızı olan Göyərçin xanımla 1961-ci ildə xoşbəxt ailə həyatı qurmuş, bu izdivacdan üç oğul dünyaya gəlmişdir.

Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) fərqlənmə diplomu ilə bitirmiş və əvvələr "Səttərxan" adına Maşınqayırma zavodunda fəaliyyət göstərmiş, sonralar "Nurgün-Motors" şirkətlər qrupunun vitse-prezidenti vəzifəsində çalışmış, 2015-ci ildə isə qəflətən dünyasını dəyişmiş Müşfiq Səfiyevin hələ 1995-ci ildə təsis etdiyi "Ekspress" adlı qəzet Azərbaycan mətbu orqanları sırasında öz layiqli yerini tuta bilmişdir.

Müşfiq Səfiyevin böyük oğlu Nicat BDUnun Hüquq fakültəsinin II kurs tələbəsi, kiçik oğlu Elnur isə məktəblidir.

Rusiyanın İvanovo Toxuculuq İnstitutunun məzunu olan Vüqar Səfiyev, İvanov şəhərində şəxsi bizneslə məşğul olmaqla yanaşı, yerli munisipal orqanın deputatıdır. Onun qızı Aytac Azərbaycan Dövlət İqtisad Universitetinin III kurs tələbəsi, oğlu Tural Bakı Polis Akademiyasının I kursantı, ikinci qızı Aynur isə məktəblidir.

Odlar Yurdu Universitetinin məzunu olan Rizvan Səfiyev də İvanovo şəhərində şəxsi bizneslə məşğuldur. Oğlanları Nihad və Nurlan, qızı Nival məktəblidirlər...

Dəyərli insan, gözəl şair, əziz dost, çox hörmətli Əli Vəkil!

Doğru deyirlər ki, şairin yaşı olmur, onun ömrü əsərlərinin ömrü qədərdir...

Allahın Sizə ayırmış olduğu ömür payının bundan sonrakı dönəmlərində də yazıb-yaradacağınız poeziya nümunələrinin Sizi həmişəyaşar şair kimi yaddaşlara yazdıra biləcəcəyinə qəlbən inanır və davamlı uğurlar diləyirəm, sözümü Sizə həsr etdiyim şeirdən bir parçanı təqdim etməklə bitirirəm:

Çapdın həyat atın, çatdın səksənə,
Bir yeni səksən də yaraşır sənə.
İnşallah, görüşək yüzdə, yüz onda,
Bugünkü görkəmdə, bugünkü donda...

Fəxrəddin MEYDANLI,
şair.